

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 14 (21.675)

20 yanvar 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda Dünya İqtisadi Forumunun “İpək Yolunun səmərəsi” adlı interaktiv iclasında iştirak edib.

Dövlətimizin başçısı iclasda çıxış edib və sualları cavablandırıb.

Azərbaycanın tarixi İpək Yolunun bərpasında önəmli rol oynadığını deyən Prezident İlham Əliyev bu istiqamətdə ölkəmiz tərəfindən görülən işlərdən danışıb. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin İpək Yolunun bərpasına xidmət etdiyini, bu dəmir yolu vasitəsilə İpək Yolunu qısa vaxtda qət etməyin mümkün olacağını deyən dövlətimizin başçısı hazırda Bakıda Xəzər regionunda ən böyük dəniz limanının tikildiyini bildirib, İpək Yolunun sərmayədarlar üçün cəlbedici olmasının yolları barədə düşünülməsinin vacibliyini diqqətə çatdırıb. Prezident İlham Əliyev hazırda yüklərin İpək Yolu ilə daşınması üzrə müxtəlif ölkələrlə əməkdaşlıq üzərində iş getdiyini diqqətə çatdıraraq Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması ilə bağlı tədbirlər gördüyünü bildirib.

İpək Yolu layihəsinin insanlar arasında da əlaqələrin qurulmasına kömək edəcəyini deyən dövlətimizin başçısı bunun ölkəyə daha çox turistlərin cəlb edilməsinə imkan verəcəyini bildirib. Bu məqsədlə hazırda Azərbaycanda elektron viza sisteminin tətbiq olunduğunu, bunun isə əcnəbilərə Azərbaycana gəlmək üçün vizanı 3 gün ərzində almağa imkan yaratdığını vurğulayıb.

Bununla da yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına işgüzar səfəri başa çatıb.

## “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunan daxili işlər orqanları əməkdaşlarına nişanlar təqdim edilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 yanvar tarixli Sərəncamı ilə daxili işlər orqanlarında səmərəli fəaliyyətinə görə bir qrup əməkdaş “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində təqdimetmə mərasimi keçirilib.***



Təqdimetmə mərasimində çıxış edən daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov bildirib ki, muxtar respublikanın daxili işlər orqanları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin davamlı qayğısı ilə əhatə olunub. Əməkdaşların əməyinin yüksək qiymətləndirilməsi, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, digər problemlərinin həll edilməsi onların öz vəzifə borclarını səviyyədə yerinə yetirmələrinə stimul olub. Nazir diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Komissarlığının yaradılmasının 93-cü ildönümü münasibətilə keçirilən tədbirdə bir qrup əməkdaşa nazirliyin “Əla xidmətlərə görə” döş nişanının, fəxri fərmanların, pul mükafatlarının verilməsi, bir neçə nəfərə təşəkkür elan edilməsi muxtar respublikada polis əməyinə verilən qiymətin ifadəsidir. Ən böyük qayğı isə Ali Məclis Sədrinin adıçəkilən sərəncamı ilə bir qrup əməkdaşın “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsidir.

Daxili işlər naziri deyib ki, ötən il də muxtar respublikada sabitliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilib, əməliyyat şəraiti tam nəzarətdə saxlanılıb, qarşıya qoyulan vəzifələr layiqincə yerinə yetirilib. Daxili işlər orqanlarında şəxsi heyətin peşəkarlıq səviyyəsi xeyli yüksəldilib. İstər şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, istərsə də daxili işlər orqanlarının maddi-texniki bazasının, xidməti iş şəraitinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb.

İxtisaslı kadrların hazırlanması istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzində saxlanılıb. Haliyədə 97 nəfər əməkdaş Polis Akademiyasında və ölkənin digər ali məktəblərində təhsil alır. 15 əməkdaş isə orta rəis heyəti vəzifəsinə irəli çəkilib.

Bildirilib ki, şəxsi heyət arasında nizam-intizam daha da möhkəmləndirilib. Xidmətdə fərqlənən əməkdaşlardan 16 nəfəri 2016-cı ilin yekunu üzrə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən təltif olunub.

Naxçıvan Muxtar Respublikasında daxili işlər orqanlarında səmərəli fəaliyyətinə görə 9 nəfər əməkdaşın Ali Məclisin Sədri tərəfindən “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmasının polis peşəsinə verilən yüksək qiymətin nəticəsi olduğunu bildirən nazir deyib ki, əməkdaşlar belə diqqət və qayğıya nümunəvi xidmətləri ilə cavab verməlidirlər. Əhməd Əhmədov təltif olunanları təbrik edib və bildirib ki, bundan sonra da Naxçıvanın cinayətsiz region prinsipi qorunacaq, ictimai asayişin və sabitliyin qorunması istiqamətində müsbət nəticələr əldə olunacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında” 2017-ci il 18 yanvar tarixli Sərəncamını oxuyub.

Sonra təltif olunanlara “Rəşadətli əməyə görə” nişanı və nişanın vəsiqələri təqdim edilib.

Təltif edilənlərdən Azər Əliyev, Sədi Əliyev, Namiq Həsənov və Şərif Hüseynəliyev əməklərinə verilən qiymət üçün minnətdarlıqlarını bildirib, gələcək fəaliyyətlərində daxili işlər orqanları qarşısında qoyulmuş vəzifələri daha yüksək səviyyədə yerinə yetirəcəklərinə, muxtar respublikada sabitliyin, asayişin qorunmasında fəallıq göstərəcəklərinə söz veriblər.

✍ Muxtar MƏMMƏDOV

## Ötən il ali təhsil ocaqlarında tədrisin keyfiyyəti daha da yüksəldilib



“Naxçıvan” Universitetində 2016-cı ildə 4 fakültə, 10 kafedra, 6 şöbə, 4 mərkəz fəaliyyət göstərib. Universitetdə 14 ixtisas üzrə 854 nəfər əyani, 103 nəfər isə qiyabi şöbədə olmaqla, 957 nəfər tələbə təhsil alıb. 2016-2017-ci tədris ilində universitetdə tələbə qəbulu əvvəlki illə müqayisədə 18 faiz artıb. Universitetin magistratura şöbəsində 7 nəfər tələbə təhsil alır.

Bu fikirləri “Naxçıvan” Universitetində ötən ilin yekunları və cari ildə qarşıda duran vəzifələrlə bağlı keçirilən yığıncaqda universitetin rektoru, professor İsmayıl Əliyev səsləndirib. Rektor bildirib ki, “Naxçıvan” Universitetində kadr hazırlığı ilə 75 nəfər professor-müəllim heyəti məşğul olur. Onlardan 3 nəfəri elmlər doktoru, professor, 24 nəfəri fəlsəfə doktoru, dosentdir.

Qeyd edilib ki, ötən il ali təhsil ocağının “Elmi əsərlər” jurnalının ilk sayı nəşr olunub. “Naxçıvan” Universitetinin əməkdaşları 5 monoqrafiya, 5 dərs vəsaiti, 60 proqram və metodik vəsait, 178 məqalə və tezis nəşr etdiriblər ki, bu məqalə və tezislərin 23-ü xaricdə işıq üzü görüb.

Vurğulanıb ki, ötən il Beynəlxalq əlaqələr şöbəsi beynəlxalq təlim və proqramlarda, müxtəlif sərgilərdə iştirak edib. İstər universitetin tanıtımı, istərsə də ikitərəfli əlaqələrin qurulması və inkişafı baxımından bu istiqamətdə mühüm işlər görülüb. Belə ki, universitetin əməkdaşları fevral ayında “EURİE – 2016” Avrasiya Beynəlxalq Ali Təhsil Sammitində, aprel ayında Qafqaz Universitetlər Birliyinin təşkil etdiyi “KUNİB Təhsil Sərgisində” iştirak ediblər.

Bu dövrdə universitetə xarici tələbələrin cəlbi üçün müəyyən tədbirlər həyata keçirilib. Belə ki, Türkiyə Respublikasından olan bir tələbə qeydiyyatdan keçib, daha 3 tələbə bu günlərdə doktorantura təhsili üçün qeydiyyatdan keçəcək.

Yığıncaqda universitetin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli, tərbiyə işləri üzrə prorektor Əli Yusifov, Pedaqoji fakültənin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru Məftun İsmayılov, İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev, Xarici dillər fakültəsinin dekanı Hüseyn Bağırsoylu görülmüş işlərlə bağlı ətraflı məlumat verib, qarşıda duran vəzifələrdən danışıblar.

***Naxçıvan Müəllimlər İnstitutunda da 2016-cı ilin yekunlarına həsr olunmuş tədbir keçirilib.***

İnstitutun rektoru, professor Oruc Həsənli ali təhsil müəssisəsinin fəaliyyətindən və qarşıda duran vəzifələrdən danışaraq bildirib ki, Naxçıvan Müəllimlər İnstitutunda 91 nəfərdən ibarət professor-müəllim heyəti fəaliyyət göstərir. Kollektiv Azərbaycanın parlaq gələcəyi üçün müsbət keyfiyyətləri özündə əks etdirən, dövlətə və dövlətçiliyə, müstəqilliyə sədaqətli, müəllim adını uca tutan kadrların yetişməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edir, göstərilən qayğıya əməli işlə cavab verməyə çalışır. Naxçıvan Müəllimlər İnstitutunda iki fakültə, 6 kafedra fəaliyyət göstərir. Bu gün institutda 1167 tələbə təhsil alır. Onların intellektual səviyyəli kadrlar kimi yetişmələri diqqət mərkəzində saxlanılır. Belə ki, professor-müəllim heyəti müxtəlif təlim üsullarından istifadə edir, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə öz töhfələrini verməyə səy göstərir.

Qeyd olunub ki, 2016-cı ildə institutda semestr imtahanlarının şəffaf keçirilməsi diqqət mərkəzində saxlanılıb, bunun üçün məqsədyönlü tədbirlər keçirilib.

İnstitutda elmi-praktik konfransların keçirilməsinə ciddi önəm verilib. 2016-cı ildə institutda 2 respublika səviyyəli və 1 beynəlxalq, 15 institut səviyyəli elmi-praktik konfrans keçirilib. Bəhs olunan dövrdə institutda fəaliyyət göstərən kabinet



və laboratoriyaların, Əlavə təhsil mərkəzinin, Kurikulum mərkəzinin iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında yerinə yetirilməsinə nəzarət olunub, xarici ölkələrlə elm və təhsil sahəsində əməkdaşlıq genişləndirilib. 2016-cı ildə dünyanın “A” kateqoriyalı jurnallarında institutun əməkdaşlarının 19, respublika jurnallarında 205 məqaləsi, 12 kitab və monoqrafiyası, 2 dərslik, 6 dərs vəsaiti, 126 tezis və digər metodik vəsaitləri nəşr olunub, həmçinin 45 nəfər beynəlxalq, 64 nəfər respublika səviyyəli elmi konfrans, simpozium və seminarlarda iştirak edib.

Tədbirdə digər çıxış edənlər institutda ötən il görülən işlərdən, işdə buraxılan nöqsanlar və onların aradan qaldırılması yollarından, qarşıda duran vəzifələrdən bəhs ediblər.

Xəbərlər şöbəsi



# 20 Yanvar faciəsindən 27 il ötür



***Xalqımızın qan yaddaşına yazılan 20 Yanvar faciəsi tariximizin qəhrəmanlıq səhifəsi, iftixar günüdür. Çünki yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilməmiş, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdirmişlər.***

## 20 Yanvar – tariximizin qəhrəmanlıq səhifəsi

Azərbaycan övladları ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirərək 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu, elə bir səhifədir ki, bizə milli ideallar uğrunda mübarizənin, bu yolda hər cür məhrumiyyətlərə sinə gərmək əzminin nə demək olduğunu xatırladır. Bu tarix Azərbaycan xalqının əyilməz bir xalq olduğunu, müstəqilliyi pay olaraq deyil, haqq olaraq aldığını sübut edir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən bu faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir.

20 Yanvar faciəsini törətməkdə Sovet imperiyası rəhbərliyinin məqsədi Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli azadlıq hərəkatına zərbə vurmaq, bununla yanaşı, azadlıq mübarizəsinə qalxmış digər müttəfiq respublikalara da “dərs vermək” istəyi idi. 1990-cı il yanvarın 19-da “Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında” fərmanın imzalanması, ozamankı SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridilməsi, ölkəni informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün respublika televiziyasının enerji blokunun partladılması, qəzet və jurnalların nəşrinə qadağa qoyulması ermənipərəst mərkəzi hakimiyyət tərəfindən Azərbaycan xalqına qarşı aparılan mənəvi, ideoloji, siyasi təcavüz və terror idi.

Bakıya yeridilmiş qoşun kontingentinin sayı 60 min nəfərə çatırdı. Onlar “döyüş tapşırığını” yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər. Faktlarla sübut olunmuşdur ki, Azərbaycana göndərilən sovet ordu hissələrinin tərkibinə Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınmış erməni əsgər və zabitlər, sovet hərbi hissələrində xidmət edən ermənilər, hətta erməni kursantlar da daxil edilmişdi.

Sovet ordusunun xüsusi təlim keçmiş qoşun hissələri yanvarın 19-dan 20-nə keçən gecə 3 istiqamətdə Bakıya yeridilərək dinc əhaliyə qarşı misligörünməmiş vəhşiliklər etmiş, ağır cinayət törətmişdir.

Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir. Terror əməliyyatı zamanı gözə dəyən hər kəs öldürülür, yaşayış evləri atəşə tutulur, təcili yardım maşınları, yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilir, yaralılara yardım göstərən tibb işçiləri güllələnirdi. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Ovaxtkı Sovet imperiyasının ideoloji təbliğatçısı olan “Pravda” qəzeti 22 yanvar tarixli nömrəsində əsl həqiqətləri təkzib edir və yazırdı: “Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır...”

Ancaq nə ideoloji təbliğat, nə də əli qana bulanmış Bakıdakı sovet ordu hissələri xalqın müstəqillik, azadlıq arzularını boğa bilmədi. Sovet rəhbərliyində təmsil olunan rəsmilərin qanlı əməliyyatlara birbaşa rəhbərlik etməsi və amansız tədbirlərə əl ataraq milli azadlıq mücadiləsinə qalxmış insanların inam və iradəsini sarsıtmaq istəkləri baş tutmadı. SSRİ-nin digər müttəfiq respublikalarından fərqli olaraq, Azərbaycana göndərilən xüsusi ordu kontingentinin əliyalın xalqa qarşı daha amansız hərəkətləri sovet rejiminin iç üzünü bütün dünyaya açıb göstərdi.

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş qanlı cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham etmişdir. Ulu öndər Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb etmişdir: ***“Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş facia ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”.***

Ümummilli liderin bu bəyanatı SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etməklə yanaşı, həm də sözün əsl mənasında, böyük hünər və cəsarət idi. Ulu öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söyləmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübuta yetirmişdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan xalqına göndərdiyi teleqramda deyilirdi: ***“Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm”.***

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixi taleyinin hansı istiqamətdə inkişaf edəcəyinin sual altında qaldığı o təlatümlü günlərdə, Azərbaycan xalqının ən çətin anında Moskvadan doğma Vətəninə qayıtdı. Azərbaycan parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Görkəmli dövlət xadimi Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da ovaxtkı hakimiyyət tərəfindən təzyiq və hədələr göstərilirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Dahi rəhbərin öz xalqına olan sevgisi, xalqın da Ona inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıda törətdikləri qanlı cinayətlər eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərində erməni silahlı dəstələrinin fəallaşması ilə müşayiət olunmuşdur. Onların Kərkiyə, Sədərəyə və digər sərhəd kəndlərinə hücumu Qanlı Yanvarın ilk səhifəsini yazmışdı. Ancaq naxçıvanlılar düşmənin önündə mərdliklə dayandılar, şəhidlər verərək qədim Azərbaycan torpağını – Naxçıvanı qoruyub saxladılar.

Xalqımıza qarşı törədilən 20 Yanvar faciəsinə ilk dəfə ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində siyasi qiymət verilmişdir. Ümummilli liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar qəbul olunmuşdur. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu bu tarixi sənəddə deyilirdi: “Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır”. Qərarda 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunması öz əksini tapmışdır. Ümummilli liderimizin rəhbərliyi ilə 1992-ci il yanvarın 13-də “1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı” qəbul olunmuşdur.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ümummilli liderimizin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana sovet qoşun hissələrinin yeridilməsi xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar hadisələrini Azərbaycan xalqının müstəqillik yolunda mübarizə tarixi kimi xarakterizə edərək demişdir: ***“20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi. Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar”.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, həmin qanlı gecədə əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Dövlət başçısının “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2006-cı il 19 yanvar, “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Ölkəmizin paytaxtı Bakı şəhərinin Yasamal rayonundakı “20 Yanvar” dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

*1990-cı il 20 Yanvar qanlı faciəsini, həmin gün şəhidlərimizin qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, tərəqqimizin bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaqlar. Çünki bir millət kimi sınmadığımızın, əyilmədiyimizin, məğlub olmadığımızın, ümummilli mənafelər uğrunda birləşə bildiyimizin, azadlığımızı və müstəqilliyimizi qanımızla və canımızla əldə etdiyimizin sübutu olan 20 Yanvar qan yaddaşımıza yazılmış faciəli tariximiz, eyni zamanda qəhrəmanlıq salnaməmizdir. Bu tarixi yazanların və bu tarixin hüquqi, siyasi və tarixi qiymətini verənlərin xatirəsi hər bir azərbaycanlı üçün əzizdir. 20 Yanvar tarixi qürur və şərəf tariximizdir.*

**“Şərq qapısı”**

# Qanlı Yanvar faciəsinin ildönümü qeyd olunub



***AMEA Naxçıvan Bölməsində 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar keçirilən elmi konfransdan əvvəl şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

“20 Yanvar – tariximizin qanlı və şanlı səhifəsi” mövzusuna həsr olunan tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Azərbaycan xalqının vətənə, torpağa sədaqətini, azadlıq, müstəqillik uğrunda mübarizədə sarsılmazlığını bütün dünyaya göstərən 20 Yanvar faciəsinin səbəblərindən, Sovet imperiyasına rəhbərlik edən ermənipərəst vəzifə sahiblərinin Azərbaycan xalqına qarşı məkrli siyasətlərindən və 1990-cı ildə törədilən qanlı cinayətlərdən ətraflı danışıb. Akademik çıxışında 20 Yanvar tarixini Azərbaycan xalqının qəhrəmanlıq zirvəsi kimi dəyərləndirib.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, həmin institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilovun, böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin məruzələri dinlənilib.

Məruzələrdə 20 Yanvar faciəsinin törədilməsinin səbəblərindən, bu faciəyə hüquqi-siyasi qiymət verilməsində ulu öndərimiz Heydər Əliyevin tarixi xidmətlərindən, Azərbaycan xalqının mübarizliyindən, qüdrətli ordumuzun sərhədlərimizi etibarlı müdafiəsindən bəhs olunub.

Tədbirdə Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olan 20 Yanvar hadisələrinin gələcək nəsillərə əsaslı şəkildə çatdırılması istiqamətində bölmə əməkdaşlarının üzərinə düşən vəzifələrdən də danışılıb.

Konfransda 27 il bundan öncə Bakı şəhərində törədilən qanlı hadisənin fotoları slayd vasitəsilə nümayiş olunub.

Məlumat üçün onu da qeyd edək ki, AMEA Naxçıvan Bölməsinin Mərkəzi Elmi Kitabxanasında 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar “20 Yanvar” adlı sərgi də təşkil edilib. Jurnal, qəzet və kitab materiallarının yer aldığı sərgi yanvar ayının sonlarına kimi nümayiş olunacaq.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına hər səfəri mühüm layihələrin həyata keçirilməsi, yeni infrastruktur obyektlərinin istifadəyə verilməsi ilə yadda qalır. Bu səfərlərdə diqqətçəkən məqamlardan biri də ölkə başçısının Naxçıvana hər gəlişində ordumuzun komplektləşdirilməsi ilə bağlı görülən işlərlə, o cümlədən döyüş arsenalı ilə tanış olması və yeni hərbi obyektlərin istifadəyə verilməsidir. Bu sahədə həyata keçirilən tədbirlər göstərir ki, dövlətimizin başçısı Naxçıvanın təhlükəsizliyinə xüsusi diqqət yetirir. Fikir versək görərik ki, son 13 ildə muxtar respublikaya 13 dəfə səfər edən Prezident İlham Əliyev hər gəlişində hərbi hissələrdə olub, yeni infrastruktur obyektlərinin açılışını edib, şəxsi heyətin sosial və xidmət şəraiti ilə maraqlanıb. Və hər dəfə də muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərin davamlı olacağının anonsunu verib.***

Ali Baş Komandanın Naxçıvan Muxtar Respublikasına göstərdiyi bu həssas yanaşma bir çox tərəfləri ilə diqqət çəkir. Birinci ona görə ki, ötən əsrdə xalqımıza qarşı aparılmış və bu gün də davam etdirilən ədalətsiz siyasət nəticəsində Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşüb. Bu, o deməkdir ki, istənilən dövrdə Naxçıvanın təhlükəsizliyi, ilk növbədə, buradakı hərbi birləşmələrdən asılıdır. Digər tərəfdən, Naxçıvan əvvəllər də, indi də Azərbaycan üçün, sadəcə, bir ərazi vahidi deyil, eyni zamanda keçid qapısıdır. Deməli, Naxçıvan həm də strateji regiondur. Qədim diyarın strateji əhəmiyyəti isə indi yox, hələ tarixən buradan keçən Böyük İpək Yolunun mövcudluğu ilə öz təsdiqini tapıb. Məsələnin daha önəmli tərəfi isə ermənilərin Qafqaza köçürülməsindən sonra bu qədim Azərbaycan diyarına mütəmadi olaraq əsassız ərazi iddiaları ilə bağlıdır. Maraqlıdır, ermənilər Naxçıvana niyə bu qədər iddialıdırlar? Əlbəttə, ümumi cavab bundan ibarətdir ki, Azərbaycanın istənilən bölgəsi ermənilər üçün iddia mənbəyidir. Hətta ötən əsrin sonlarından Dağlıq Qarabağın "müstəqilliyini" tanıda bilməyən erməni ideoloqlarının bəziləri bildirirdilər ki, "...əslində, mübarizəmizə Naxçıvan üzərindən başlasaydıq, biz Qarabağdan da üstün mövqelər əldə edə bilərdik..." Bu cür zəhərli ideologiyanın müəllifləri düşünürdülər ki, Naxçıvanı çox qısa bir müddətdə ram edə biləcəklər. Dağlıq Qarabağ və digər ətraf rayonları işğal edən ekstremist qüvvələr Naxçıvana da davamlı hücum edir, sərhəd bölgələrimizi daim təhdid altında saxlamağa çalışırdılar. Məqsəd Ermənistanın dövlət sərhədlərini genişləndirmək, Azərbaycanla Türk dünyası arasında əlaqəni kəsmək, Şərq-Qərb dəhlizində söz sahibi olmaq, Türkiyə Respublikasına qarşı ərazi iddialarını real müstəviyə çıxarmaq və "Zəngəzur planı"nı uğurla sona çatdırmaqla Cənubi Qafqazdakı digər ərazilərin işğalı üçün zəmin hazırlamaqdan ibarət idi. Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi düşmənlərin arzusunu gözündə qoydu. Naxçıvan torpaqlarını işğal edə bilməyən erməni daşnakları bu ərazilərə iddialarından əl çəkməyiblər. Hadisələrin sonrakı inkişafı göstərdi ki, düşmən istənilən vaxt torpaqlarımıza hücum edə bilər. Amma son dövrlərdə düşmənin bu istiqamətdə hücumları xeyli səngiyib. Bunun isə səbəbləri var. Səbəblərdən biri odur ki, əvvəlki dövrlərdən fərqli olaraq indi Naxçıvanı kompleks hərbi birləşmələri özündə cəmləşdirən Əlahiddə Ümumqoşun Ordusu qoruyur. Bu ordunun döyüş arsenalı ən müasir silahlarla, hava hücumundan müdafiə vasitələri, o cümlədən düşməni hər an vahiməyə salacaq raket-artilleriya qurğuları ilə komplektləşdirilib. Hava hücumundan müdafiə vasitələri düşmən ərazisini nəzarətdə saxlamaqla yanaşı, muxtar respublikanın hava sərhədlərini poza biləcək istənilən obyektin yüksək dəqiqliklə zərərsizləşdirilməsinə imkan verir. Əgər əvvəllər muxtar respublikanın sərhədlərinə edilən hücumlar işğal məqsədi daşıyırdısa, indi təsadüfi hallarda eşidilən zəif silah səsləri buradakı ordu hissələrini təxribata sövq etməyə hesablanır. Çünki Dağlıq Qarabağ və digər işğal olunmuş Azərbaycan torpaqlarından fərqli olaraq Naxçıvandakı döyüş əməliyyatları dövlət sərhədinin pozulmasından sonra başlaya bilər. Lakin bu amil də düşmənlər üçün effektli deyil. Ona görə ki, Əlahiddə Ümumqoşun Ordusunun istifadəsində olan yüksək dəqiqliyə malik müasir raket və artilleriya kompleksləri Naxçıvandan cəmi 60 kilometrlik məsafədə yerləşən paytaxt İrəvana zərbələr endirməyə imkan verir. Yəqin ki, qarşı tərəf bu amili hesaba almamış deyil. Məhz bu baxımdan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin muxtar respublikaya hər səfəri həm də düşmən ölkədə diqqət mərkəzində saxlanılır.







Burada əsas diqqət mərkəzində olan amillərdən biri də Əlahiddə Ümumqoşun Ordusunun müasir silah-sursatla təmin edilməsi, hərbi birləşmələrdə xidmət üçün lazımi şəraitin yaradılması, şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olmasıdır. Ali Baş Komandan muxtar respublikaya hər səfərində hərbi hissələrdə olur, ordu quruculuğu sahəsində görülən işlərlə maraqlanır. Bu dəfə də belə oldu. Dövlət başçısı yanvarın 11-də Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışını etdi. Yaradılmış şəraitlə bağlı məlumatlandırılan Ali Baş Komandan sonra silahlanmaya qəbul edilən hərbi texnika ilə tanış oldu. Prezident İlham Əliyev bu sahədə görülən işləri belə qiymətləndirdi: ***"...Bu gün, eyni zamanda, hərbi hissədə olarkən bir daha gördüm ki, Naxçıvanın hərbi potensialı da lazımi səviyyədədir. Biz bu istiqamətdə də böyük iş aparmışdıq və bu gün də aparırıq. Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır. Bu gün olduğum hərbi hissədə ən yüksək şərait yaradılıb. Yəni, Naxçıvanın hərbi potensialı və müdafiə qabiliyyəti daim diqqət mərkəzindədir".***

Ali Baş Komandanın səsləndirdiyi bu fikirlərdən də görünür ki, Naxçıvanın müdafiə qabiliyyətinin yüksəldilməsi daim diqqət mərkəzində olub və bundan sonra da olacaq. Ötən dövr ərzində burada yüksək hərbi potensial yaradılıb. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusu müasir texnika, silah və sursatla təmin olunub. Bütün bunlar isə düşmənləri qorxutmaya bilməz. Bu qorxudan doğan həyəcanlı açıqlamaları ötən il Əlahiddə Ümumqoşun Ordusunun təlimləri zamanı düşmən ölkənin mətbuatından da bilirik. Ölkə başçısının burada olarkən səsləndirdiyi ***"Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır"*** fikri isə düşmənə məhz bu istiqamətdə anonsu verilmiş xəbərdarlıqdır.

Bəli, bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Əlahiddə Ümumqoşun Ordusu Naxçıvanın təhlükəsizliyinin qarantıdır. Regionumuzun təhlükəsizliyi muxtar respublikada yeni iqtisadi layihələrin həyata keçirilməsinə, buraya gələn turistlərin sayının artmasına, Naxçıvanın müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsinə imkan verir. Ümumilikdə isə Azərbaycan Silahlı Qüvvələrinin regionun, eləcə də dünyanın ən güclü ordularından biri səviyyəsinə qalxması həm də tarixən xalqımızın başına gətirilən qanlı hadisələrdən alınmış tarixi ibrət dərsidir. Əgər Azərbaycan zamanında indiki kimi güclü milli orduya sahib olsaydı, Xocalı, 20 Yanvar kimi qanlı hadisələr də tariximizdə yaşanmayacaqdı.

*Bu gün hər birimiz qürur hissi keçiririk ki, biz müstəqil dövlətdə yaşayırıq, xalqımız bu Vətənin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızı unutmur, onları ehtiramla yad edir. Bu qürur hissini isə bizə qüdrətli müstəqil Azərbaycan və onu qoruyan güclü Ordumuz yaşadır.*

**Səbuhi HƏSƏNOV**

# 20 Yanvar alovunun ilk qığılcımı – *Sədərək döyüşləri*

Xalqın bir millət kimi yaşaması onun özünümüdafiəsindən başlanır. Bu, elə bir imtahan anıdır ki, insanlar ayaq basdığı torpağın indiyə qədər ona verdiyi çörəyin haqqını ödəməyi, onu qorumağı, lazım gələndə şəhidlik zirvəsinə qədər ucalmağı hər şeydən üstün tuturlar.

Xalqımız şanlı keçmişinə həmişə sadiq qalıb, heç zaman digər millətlərin mərhəmətinə sığınmadan qəhrəman övladlarının canı bahasına öz varlığını qoruyub saxlayıb. XX əsrin sonlarına doğru erməni daşnaklarına Sədərəkdə verilən layiqli dərs də Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılıb, Vətənini sevən hər bir insanın yaddaşında dərin izlər buraxıb. 20 Yanvar faciəsinin 27-ci ildönümü günündə o dövrdə Sədərək rayonunun qəhrəmanlıqla müdafiəsini, bu döyüşlərdə fədakarlıq göstərənləri dərin hörmətlə anır, şəhidlərimizin ruhu qarşısında baş əyirik.

Sədərək öz coğrafi mövqeyi ilə həmişə diqqət mərkəzində olub. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvanın "Qeyrət qalası" adlandırdığı Sədərək rayonu Azərbaycanda 3 dövlətlə həmsərhəd olan yeganə inzibati ərazi vahididir. Bu bölgə bütün ölkəmizi Türkiyə Cümhuriyyətinə birbaşa birləşdirən tək həmsərhəd rayonudur. Söz yox ki, məkrli düşmən hələ o dövrdə ilk hücumlarını bu bölgədən başlamaqla Naxçıvanı dünyadan tamamilə təcrid etməyi qarşısına məqsəd qoymuşdu.

Beləliklə, 1990-cı ilin 20 Yanvar hadisələrinin qanlı xronologiyası, əslində, Sədərəkdən başlanır. Hələ 20 Yanvara bir neçə gün qalmış ermənilər tərəfindən sərhəddə törədilən təxribatlar yaxınlaşan müharibədən xəbər verirdi. Yanvarın 18-dən başlayaraq ən yeni tariximizin ilk şəhidləri də Sədərəyin dinc sakinləri, onun müdafiəçiləri arasından verildi.

Ümumiyyətlə, 1990-1993-cü illər arasında gedən qanlı döyüşlər zamanı ermənilər tərəfindən Sədərəyə 14 dəfə ən müasir silahlarla hücum edilib. Bu döyüşlər zamanı Vətənin qeyrətli 108 oğlu şəhidlik zirvəsinə ucalıb, ancaq öz səngərindən bir nəfər belə olsun, geri çəkilməyib. Arasıkəsilməz hücumlar nəticəsində Sədərəkdə 500-ə yaxın ev, məktəblər, inzibati binalar dağıntılara məruz qalıb. Ulu öndər Heydər Əliyev həmin hadisələrdən danışarkən deyib: ***"Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq Sədərəyin üzərinə düşmüşdür. Sədərəkdə vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".***

Məlum hadisələr zamanı Sədərəyin müdafiə olunması, bütün naxçıvanlıların bir yumruq kimi birləşib düşmənə cavab verməsi o dövrün şəhidlərinin yaddaşında dərin izlər buraxıb. Sədərəklilərlə həmin günlər haqqında söhbət edərkən o zaman getdikcə gərginləşən bir vəziyyətdə ermənilərin hər an sərhəd kəndinə hücum edə biləcəyi ehtimalının artmasına, yerli əhalinin uşaqdan-böyüyə bir olub Naxçıvanın hər yerindən gələn el köməyinin də gücü ilə düşmənə layiqincə cavab verdiyinə sanki bir daha şahid olursan. Doğrudan da, düşmən nə qədər məkrli, nə qədər silahlanmış olsa da, o, torpağa bağlı, amalı bir olan insanları heç zaman qorxuda bilməzdi.

Sədərək döyüşləri və 20 Yanvar hadisələri Azərbaycan tarixinin şanlı səhifələridir. Bu tarixə 27 il keçəndən sonra baxdıqda görürük ki, böyük bir xalqın mübariz ruhu hansı zamanda olursa-olsun, o, ölməzdir. Əgər o dövrdə ov tüfəngi ilə düşmənin qarşısına çıxan Naxçıvanın mərd oğulları tam silahlanmış erməni işğalçılarına ağır zərbələr vura bildilərsə, bugünkü qüdrətli Azərbaycan Ordusunun, onun igid əsgərlərinin və ən müasir hərbi texnikasının qarşısında düşmən ölkənin tamamını məhv etmək gücümüz vardır. Bu gücü isə işğalçı ermənilər artıq görüb, lərzəyə gəliblər. Bəli, indi nə həmin 1990-cı ildəki Azərbaycan, nə də ki əliyalın Sədərək əhalisidir düşmən qarşısında. Bu günün reallığı tam başqadır. Mənfur erməni daşnakları artıq yaxşı bilirlər ki, 1990-cı illərdə Sədərəyə atdıqları güllələrə xalqımızın qeyrət qalasının qayaları sipər çəkdisə, indi onların qarşısında müasir Azərbaycan Ordusunun qoruduğu Sədərək vardır. İnkişaf edib gözəlləşən, düşmənə gözdağına çevrilən Sədərəyi görən ermənilərin artıq bütün dünyada hamının gözü qarşısında düşdükləri rəzil vəziyyətlə barışmaqdan başqa çarələri qalmayıb. Çünki indi həm iqtisadi, həm siyasi, həm də hərbi sahədə son söz Azərbaycanındır.

**Əli CABBAROV**



# Təki Vətən sağ olsun!

Hər dəfə Şəhidlər xiyabanına enən son pilləyə ayaq basanda könlümdəki qürur və kədər hissləri bir-birinə qarışır, bu insanları bizim aramızdan qoparan düşmənə olan nifrətim qat-qat artır, məzarlara baxdıqca yaxın keçmişimizdə baş verən hadisələr bir-bir yenidən gözlər önünə gəlir, yaddaşım yenidən vərəqlənir, qəhrəmanlarımızın baxışları sanki üzərimə tuşlanır. Burada torpağa tapşırılan neçə-neçə şəhidin rəsmi dil açıb danışır, əvvəllər yalnız şəhərin bir hissəsi olan, ancaq bir neçə müddət sonra Şəhidlər xiyabanına çevrilən bu məkanda tək olmadığımı bir daha anlayıram.

Bu xiyabanda onların əbədiyyətə varan ayaq səslərini duymamaq, mübariz vətən oğullarının döyüş meydanında düşməni lərzəyə salan hayqırtılarını eşitməmək mümkünsüzdür. Onları ziyarət edənə tuşlanan hər baxışda sonsuz həyat eşqi ilə bərabər, vətən sevgisi də var, qürur, fəxarət də, həsrət də, nigarançılıq da. Burada qəhrəmanların əbədiyyətə doğru aparan addım səslərini duymağa hazır olan hər kəsi bu səslərin ahəngi bir anlığa real həyatdan qoparıb çox-çox uzaqlara aparır. Rəngini soykökümdən, imanımdan və şəhid qanlarından alan, həzin-həzin dalğalanan bayrağın altında insan bütün varlığı ilə bu qəhrəmanların qarşısında yox olur, qəlbinin səsini dinləməyə başlayır:

– Bu torpaqda qəhrəmanlıq axtaran kəs başqa yerə üz tutmağın çox əbəsdi, şəhidlərin çağırışı azan qədər əzəmətli, azan qədər müqəddəsdi. Vətən üçün öz canından keçənləri, al qanını bu torpaqçün tökənləri soyuq qışın ayazında, muğamımın avazında, sübh çağında alov dilli məşəl yanan xiyabanda axtar. Nə zaman ki görəcəksən sən onları, zülmətlərdə ataş olub yananları, onda baş əy, de onlara qəlbdən gələn sözlərini, axtar-ara şəhidliyə gedənlərin silinməyən, yaddaşlara həkk olunan izlərini. Onlara de, qorxutmayıb xalqımızı bu olanlar. Qorxutmayıb ölüm-itim, mart qırğını, can Xocalı, Qara Yanvar, qorxutmayıb bu torpağa axan qanlar. Nə qədər ki azadlıqçün tank önünə, top önünə çıxanlar var, nə qədər ki gələcəkçün bu günündən keçənlər var, var olacaq əziz Bakı, var olacaq gözəl Şuşa, var olacaq Nəqşi-cahan!

20 Yanvar qəhrəmanlıq, fədakarlıq tariximdi, 20 Yanvar qəddar düşmən qarşısında ucaldılan haqq səsimdi. Nə qədər ki dövlətim var, heç bir qüvvə bu səsləri kəsə bilməz, nə qədər ki səngərlərdə gecə-gündüz keşik çəkən əsgərim var heç bir düşmən müstəqillik yolumuzu kəsə bilməz. Nə qədər ki al qanadlı şahinlərim keşik çəkir səmalara, nə qədər ki ordularım bərabərdi dünyadakı ən qüdrətli ordulara – mən qorxmuram, çəkinmirəm. Tam əksinə – hayqırıram var səsimlə pusqudakı xain, cılız düşmənimə, hayqırıram var gücümlə, var səsimlə, Tanrı verən nəfəsimlə. Hayqırıram, bilsin düşmən, qisas günü, hesab günü yaxınlaşır, bizə zəfər, sizə isə alçaldıcı təslimiyyət çox yaraşır.

...Ağlamaram şəhidimin məzarında. Göz yaşımı çevirmişəm nifrətimə, kədərimi çevirmişəm Vətənə məhəbbətimə. Ululardan ulu xalqıq, bir ölüb, min diriləri̇k. Təki Vətən sağ olsun! Təki Vətən sağ olsun!

**Səbuhi HÜSEYNOV**

# Xatirə Muzeyi ilə muxtar respublikanın 200-dən çox təhsil müəssisəsi arasında interaktiv əlaqə yaradılıb

***20 Yanvar faciəsinin 27-ci ildönümü münasibətilə yanvarın 19-da Naxçıvan şəhərindəki Xatirə Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında interaktiv əlaqə yaradılıb.***

Xatirə Muzeyinin bələdçisi Rəqsanə Kərimova bildirib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı müxtəlif illərdə törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar saxlanılır. Eyni zamanda muzeydə qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.





Naxçıvan şəhər 13 nömrəli tam orta məktəb

Qeyd olunub ki, Xatirə Muzeyi azərbaycanlılara qarşı 1905-1907-ci, 1918-1920-ci illərdə törədilən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlarla zəngindir. Muzeydə ermənilərin Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda və digər bölgələrimizdə törətdikləri soyqırımları əks etdirən sənədlər, şəkillər, hadisələri tarixi faktlarla oxuculara çatdıran qiymətli kitablar vardır.

Qəhrəmanlıq və qürur tariximiz olan 20 Yanvar faciəsi barədə danışan Rəqsanə Kərimova deyib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirib. Azərbaycanı sovet imperiyasının buxovunda saxlamaq və sovet rejiminin hegemonluğunu hələ uzun müddət davam etdirmək məqsədilə Bakıya ordu yeridilib, misligörünməmiş qətliam törədilib.



Şərur rayon Yengicə kənd tam orta məktəbi



Şahbuz şəhər 1 nömrəli tam orta məktəb

Diqqətə çatdırılıb ki, xalqımıza qarşı törədilən bu cinayəti ilk dəfə ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək insanlığa zidd aksiya kimi pisləyib. Əsl vətəndaşlıq və ümummilli mübarizəyə çağırış məqamı olan bu addım Azərbaycan xalqının milli azadlıq uğrunda apardığı mücadilədə əsas stimul olub. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, 20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikasının sərhəd kəndləri də erməni silahlılarının işğalçı hücumlarına məruz qalıb. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal edilib, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlayıb. Hazırda muzeydə Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar vardır. Həmçinin həmin hadisələr zamanı şəhidlik zirvəsinə ucalan Vətən oğullarının fotoşəkilləri, şəxsi əşyaları da nümayiş etdirilir.

**Səbuhi HƏSƏNOV**



# Bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunmuşdu

Dünən muxtar respublikamızın orta ixtisas və ümumtəhsil məktəblərində bir dərs saatı 20 Yanvar faciəsinə həsr olunub. Dərslərdə bildirilib ki, 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə həm faciə, həm də xalqımızın qəhrəmanlıq salnaməsi, qürur günü kimi daxil olub. Həmin gün şəhidlik zirvəsinə ucalan Vətən övladları bir daha sübut etdilər ki, Azərbaycan xalqı yenilməzdir, azadlıq, müstəqillik yolundan onu heç bir qüvvə döndərə bilməz. O faciədən 27 il ötür. Ancaq qədirbilən xalqımız həmin günün dəhşətlərini yaddan çıxarmır, azadlıq mücadiləsində canından keçən şəhidlərimizi böyük ehtiramla yad edir.

Dərslərdə ulu öndər Heydər Əliyevin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verməsi və onun dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən də danışılıb.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 56